# El igidləri ilə tanınar

**2020**-ci il 27 sentyabr tarixi illər keçsə də yaddaşlardan silinməyəcək. 30 illik həsrətə 44 gündə son qoyuldu. Ali baş komandan Prezident İlham Əliyev hər zaman çıxışlarında torpaqlarımızı geri qaytaracağımızı xüsusilə vurğulayırdı. 1990-cı illərdə düşmən Qarabağı işğal etdiyi zaman igid oğullarımız var idi, lakin vahid ordumuz yox idi. Bu gün isə Azərbaycanın həm güclü ordusu,



həm də igid oğulları sayəsində Qarabağ azad olundu, düşmənə qan udduruldu. Kimin üçün, nə üçün döyüşdükləri bilinməyən düşmən 44 gündə məhv edildi. Onlar texnikalarını Bakıya qədər yeridəcəkdilər. Elə də oldu. Lakin, məhv olmuş, sıradan çıxmış halda Azərbaycan xalqına nümayiş etdirmək üçün gətirildi "o texnikalar".

"El bir olsa, dağ oynadar yerindən" deyib atalarımız. Gündən-günə xalqımız birləşir, qüdrəti artır, lakin "Yarımçıq Azərbaycan"ın yarası dərinləşirdi. Hətta xəcalətə çevrilib insanlıq qürurumuzu əzirdi. Bu heç vaxt belə qala bilməzdi. Çünki Azərbaycan xalqı mübariz, əsl vətənpərvər və öz soykökünə sadiq xalqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqının səsinə səs verdi. Xalqın birliyindən, dəstəyindən qürurlanan ölkə başçımız bütün dünyaya mesaj göndərdi: "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

27 sentyabr - Vətən müharibəsinin başladığı gün Azərbaycan üçün hərbi, siyasi və tarixi baxımdan xüsusi önəmə malikdir. Çünki uzun illər münaqişənin sülh yolu ilə həllinə sadiq qalaraq səbr nümayiş etdirən Azərbaycan tərəfi, nəhayət, öz gücünü işğalçı düşmənə göstərə bildi. Belə ki, Azərbaycan Ordusu həmin gündən başlayaraq, nəinki Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını aldı, eyni zamanda, əks-hücum əməliyyatları həyata keçirərək işğal altındakı torpaqlarımızı azad etdi.

27 sentyabr- Azərbaycan xalqının Dəmir yumruq kimi birləşdiyi gün... Azərbaycanın yenidən dirçəliş, oyanış, çəkdiyi acılara hayqırış günü...

Biz zəfər qazandıq. Amma təəssüf ki, itirmədən qazanmaq olmur. Azərbaycan xalqı yaralılarla yaralandı, şəhidlərlə şəhid oldu, qələbəsini bütün dünyaya car çəkdi. Vətən müharibəsində Azərbaycan 2907 şəhid verdi, minlərlə qazimiz oldu. Onlar bir an olsun gözlərini qırpmadan ölümün gözünə dik baxaraq düşmənin üzərinə yürüdülər.

Qəhrəmanlıq, vətənpərvərlik ölməz hisslərdir, həmişəyaşardır-bu həyat həqiqətini bizə Qarabağı görmədən sevən, onun azadlığı uğrunda canından keçən oğullarımız bir daha təlqin etdi. El igidləri ilə tanınar, deyib atalarımız. Azərbaycanımızın mərd, cəsur, qəhrəman oğulları böyük vətənpərvərlik və qürur hissi ilə içində zülmət gəzən, sinəsini yad çəkmələri əzən, dağlarında anaların naləsi, qız-gəlinin ahı, sonsuz arzuları, xoş səadətləri qalan vətən torpağını azad etmək üçün könüllü olaraq silaha sarıldılar. Nə işi var, pak və müqəddəs torpaqda murdar və xain düşmənin?! İmkan verməzdi buna igidlərimiz. Elimizin igidləri təkcə odlu silahlarla deyil, soyuq silahlarla, dişləri və dırnaqları ilə də savaşdılar. Düşməni cəhənnəmə göndərdilər. Özləri isə gülə-gülə, mahnı oxuya-oxuya müharibənin son gününə qədər qəhrəmancasına vuruşaraq qan tökdülər, şəhid oldular, qazi oldular.

Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, habelə, qazilərə, Vətən müharibəsi iştirakçılarına dövlət tərəfindən hər zaman davamlı xüsusi diqqət və qayğı göstərilir, onların mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq nəticəli tədbirlər həyata keçirilir. Şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında da Qarabağı azad edən igidlərimiz üçün ən yaxşı şəraitin yaradılmasını qeyd edir. Bu gün qazilərimiz dövlət tərəfindən yaradılmış YAŞAT fondunun sayəsində müalicə edilirlər. Döyüşdə ayağını itirən neçə-neçə igid qazimiz dövlətimizin səyi nəticəsində protez ayaqla təmin olunub. Şəhid övladlarının gələcəyi üçün dövlətimiz hər bir şərait yaradır. Şəhid ailələri, müharibə əlilləri və veteranlar ölkə başçısının sərəncamı ilə ev və maşınla təmin olunurlar.

Biz bu gün azad yaşayırıqsa, bunu qazilərimizə, şəhidlərimizə borcluyuq. Bizdə xalq olaraq hər zaman qazilərimizə, şəhidlərimizin bizə əmanət qoyub getdiyi ailələrinə diqqət və qayğı ilə yanaşmalıyıq. Biz, bizə azadlığı bəxş edənləri unutmamalıyıq, hər zaman onları yad etməliyik. Qəhrəmanlarımızı öz övladlarımıza da tanıtmalıyıq. Şəhidlərimiz, qazilərimiz övladlarımıza hər zaman örnək olmalı və onlar vətənpərvər ruhda yetişdirilməlidir. Çünki vətənpərvərlik, vətənə sevgi ilk öncə ailədən başlayır.

Artıq "Vətən müharibəsi"ndən bir il ötür. Ali baş komandan Prezident İlham Əliyevin sərəncamına əsasən 27 sentyabr ölkəmizdə anım günü kimi keçirildi. Xalqımız bu gündə də öz birliyini göstərdi. Şəhid ailələrinin yanında oldular, onların acılarını öz acıları kimi böldülər. Biz artıq müstəqil bir dövlətin vətəndaşıyıq. Biz şəhidlərimizi onların geri qaytardıqları, qanları ilə suvarılan o müqəddəs torpaqlarımızda andıq, Şuşamızda andıq.

**İlahə RƏHİMOVA.**
**"Qəbələ"**

## Yeni kitab

# "İnsanlığın zirvəsi"

Vətən dünyaya göz açdığımız doğma ocaqdan, məndən, səndən, bizdən, elə özümüzdən başlanır. Hər kəs öz sevgisi, məhəbbəti, varlığıyla Vətənini öz şəxsiyyətində, mənində yaşatmalıdır. Yaşatmalıdır ki, Vətən yaşasın. Vətənpərvərlik - özü üçün deyil, eli üçün yaşamaqdır, bu gün üçün deyil, gələcək üçün yaratmaqdır, "Mən üçün" deyil "Bizlər üçün", "Xalqım üçün" düşünməkdir. Bənna külüngüylə, diplomat siyasətiylə, alim elmiylə, yazıçı, şair qələmiylə,




tarixçi üzə çıxartdığı doğrularıyla, analar böyütdüyü nəcabətli övladlarıyla, qızlarımız nəsilbənəsil bizə miras qalmış ismətiylə, oğullarımız mərdliyi, qeyrətiylə, şagirdlərimiz təhsiliylə əsl vətəndaşdır.

Polad İsrayıl oğlu Həşimov da öz mərdliyi, qeyrətiylə bu vətən, bu xalq üçün sözün əsl mənasında öz canını qoydu. Bu gün o cismən bizlə olmasa da, ruhən yanımızdadır. Onun yaşamı da, şəhidliyi də xalq üçün bir örnək oldu.

Onun haqqında kitablar, şeirlər yazılır bu gün. Bu kitablardan biri də, "İnsanlığın zirvəsi" adlı kitabdır. Kitab Azərbaycanın Milli Qəhrəmanı, general Polad İsrayıl oğlu Həşimovun həyatı, hərbi fəaliyyətinə həsr olunmuşdur. Hərbi-vətənpərvərlik, milli-mənəvi dəyərlərimiz mövzusunu tam mənada əhatə edən bu kitabda müəllif səngər generalı olan Polad Həşimovun uşaqlıq, gənclik, tələbəlik və hərbi fəaliyyətini portret cizgilərlə, bədii dillə ifadə etmişdir. Kitabda həmçinin Polad Həşimovun silahdaşlarının, müəllimlərinin xoş xatirələri, qəhrəmanımızla bağlı ümumxalq sevgisi, həyata keçirilməsi vacib olan arzuların reallaşması, insanların yaddaşında onları narahat edən "kaş ki...lər" publisist qələmiylə qeyd olunmuşdur. Kitab Milli Qəhrəman və general haqqında müəllifin birinci kitabıdır. Onu da qeyd edək ki, qəhrəmanımız haqqında müəllifin ikinci kitabı da nəzərdə tutulmuşdur. Kitabın müəllifi, Bibixanım İsayevaya bu gözəl işində uğurlar arzulayırıq.

Kitabın redaktoru professor Rüfət Lətif oğlu Hüseynzadədir.

Kitab "Bakı Mətbəəsi" ASC-də hazır diopozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# Özümüzü qoruyaq

Bildiyimiz kimi, dünyanı cənginə alan COVİD-19 bəlası hələ də can almağa davam edir və müxtəlif məhdudiyyətlərlə yaşamağımıza səbəb olur.

Ekspertlərin fikrincə, hazırda Azərbaycanda epidemioloji vəziyyət nəzarət altındadır. Buna baxmayaraq, qarşıda bizi soyuq fəsil gözləyir. Payız-qış mövsümü gəlir. Bu mövsümdə respirator, tənəffüs yolu ilə yoluxan xəstəliklər, hava-damcı xəstəlikləri çoxalır. Ona görə də payız-qış mövsümü COVID-19 pandemiyası dövründə bir qədər problem yarada bilər. Belə ki, COVID-19 xəstəliyinə hər hansı bir respirator xəstəliyin qoşulması gözlənilə bilər. Bu, ilk növbədə qrip xəstəliyidir. Bu səbəbdən hazırda qrip əleyhinə vaksinasiya daha çox aktuallaşır. Həkimlərin fikrincə, payız-qış mövsümündə havaların soyuması ilə əlaqədar olaraq daha çox qapalı məkanlara üz tutulur. Yay aylarında daha çox açıq havada vaxt keçirir, qışda isə bunun əksinə olaraq qapalı məkanlara üz tuturlar. Bu da həmin məkanlarda sıxlığın yaranmasına və hava-damcı yolu ilə ötürülən bir sıra infeksiyaların artmasına səbəb olur. Digər tərəfdən qış aylarında vitaminli, zülallı, minerallı qidaların azlığı immun sisteminin yüksək səviyyədə olmasına mane olur. Məlum olduğu kimi, immun sisteminin yüksək olmasında meyvələr böyük rol oynayır. Qış aylarında meyvə-tərəvəzlər təzə olmur və yay aylarından saxlanılan meyvələrin vitamin dəyəri aşağı düşür. Nəticədə immun sistemi aşağı düşür, eyni zamanda hava-damcı infeksiyalarının, o cümlədən COVID-19-a yoluxmasına zəmin yaranır.

Araşdırmalara görə, yoluxmaların artıb-azalması sırf bioloji amillərlə əlaqədardır. Hər bir infeksiyanın mənbəyi, epidemik alovlanma dövrü olur. Epidemik alovlanma pik nöqtəyə çatandan sonra sönmə dövrü başlayır. Epidemiyanın bu xüsusiyyətinə görə onu dalğavarı adlandırırlar. Yaxud da hər bir pandemik infeksiyanın baş qaldırdığı kimi nə vaxtsa sönməsi də olur. COVID-19 infeksiyası da hazırda pandemiya dövründədir, müəyyən zamandan sonra sönərək pandemik vəziyyətdən çıxacaq. Pandemiya ləğv olunacaq, lakin bu o demək deyil ki, COVID-19 infeksiyası tamamilə təmizlənərək sıfıra düşəcək. Belə bir ehtimal, əlbəttə ki, yoxdur. Koronavirus infeksiyasının ümumilikdə 40-dan artıq növü var və insan orqanizmində altı növ xəstəlik törədir, yeddinci növ də COVID-19-dur. COVID-19-un tamamilə yoxa çıxacağını və yaxud olmayacağını düşünmək olmaz.

Pandemiya məktəblərin qapanmasının uşaqlar üçün böyük mənfi təsirlər göstərdiyini nümayiş etdirməklə yanaşı, məktəblərin uşaqların təhsili, psixi sağlamlığı və sosial bacarıqları baxımından da əhəmiyyətli rol oynadığını sübuta yetirdi. Uşaqlar və gənclər təhsillərinə bir il də fasilə verilməsi riski ilə üzləşməməlidirlər.

ÜST və UNICEF-in bəyan etdiyi kimi, bu tədbirlərə müəllimlər və digər məktəb işçilərinin peyvəndlənməyə əlçatanlığın təmin edilməsi, eləcə də sinif otaqlarının daha yaxşı havalandırılması, siniflərdə daha az şagird sayı, fiziki məsafənin gözlənilməsi, məktəb əməkdaşlarının virusa qarşı müntəzəm yoxlanılması və valideynlərin təhlükəsizlik tədbirləri haqda davamlı məlumatlandırılması kimi tədbirlər vasitəsilə məktəb mühitinin təhlükəsizlik standartlarına uyğunluq baxımından yaxşılaşdırılması daxildir.

Son dövrlərdə yoluxma sayında azalma müşahidə edilsə də vətəndaşlarımız yenə də özünü mütləq şəkildə qorumalı və qapalı məkanlarda tibbi maskadan istifadə etməlidir.

